# "Tullantıları hədiyyələrə dəyiş" festivalı: 4803 litr plastik tullantı toplanıb

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, Xətai Rayon İcra Hakimiyyətinin, "Azersun Holding" MMC-nin, "Təmiz Şəhər" ASC-nin, "AzEkol" MMC-nin, "Kontakt" mağazasının, "Araz" supermarketlər şəbəkəsinin, "Libraff" kitab mağazaları şəbəkəsinin, "Təkan" İctimai Birliyinin dəstəyi ilə Ağ Şəhər "Biznes Mərkəzi 2020"nin qarşısında "Tullantıları hədiyyələrə dəyiş" festivalı keçirilib. AZƏRTAC xəbər verir ki, festival çərçivəsində vətəndaşlar ümumi həcmi 4803 litr olan plastik, 475 litr olan şüşə və 393 ədəd işlənmiş batareya təhvil verərək əvəzində müxtəlif hədiyyələr əldə ediblər.



Festival çərçivəsində uşaqlara tullantıların idarə olunması sahəsində master-klas təşkil olunub, ekoçantalar və kətan üzərində tullantılarla bağlı rəsmlər çəkilib. "Təmiz şəhər" ASC-nin "Tullantıdan sənətə" eksponatları nümayiş etdirilib, həmçinin uşaqlar tullantılardan əşyalar hazırlayıblar.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ekoloji maarifləndirmə və kommunikasiya şöbəsinin müdiri Səyyarə Məmmədova "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən tədbirin məqsədinin tullantıların qarşısını almaq, resurslardan daha səmərəli istifadə etmək, tullantıları mənbəyində toplayıb təkrar emal etmək, ictimaiyyəti tullantıların düzgün idarə olunmasına stimullaşdırmaq olduğunu deyib:

"Festival vətəndaşların marağına səbəb oldu. Onlar evdə çeşidlədikləri plastik, şüşə tullantıları, təhlükəli tullantılar sayılan batareyaları təhvil verib əvəzində müxtəlif hədiyyələr qazandılar".

Azərbaycan.- 2024.- 4 avqust (№ 164).- S.6.